слов, традиционно называемых в лингвистике синонимами, по-разному трактуется представителями разных языковых школ. Поэтому существуют разногласия по поводу природы связи между словами. Основная причина разногласий в том, что синонимы двойственны по своей природе. Хотя эти слова имеют схожие значения, есть также много различий в значениях. Потому что «синонимия слов возникает в связи с развитием мышления человека, в результате попытки открыть, изучить и назвать новые стороны того или иного предмета, события. В статье также исследуется использование Ильясом Тапдигом синонимов в детских стихотворениях и его умелый подбор подходящих слов, чтобы маленькие дети учились с легком.

***Rəyçi Prof. Quliyev Telman***
***Azərbaycan dili kafedrasının 18 mart 2021-ci il tarixli onlayn iclasın 07 saylı protokolu***
***Daxil olma tarixi 20 mart 2021-ci il***

**UOT:80.**

# NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA ALLAHU TƏALANIN SƏLBİ SİFƏTLƏRİ

***Hüseynova Xəyalə Rasim***
***AMEA Gəncə Bölməsi, Nizami Gəncəvi Mərkəzi***
***x_genceli@yahoo.com***

**Xülasə:** *Dahi mütəfəkkir Nizami Gəncəvi kamilliyə aparan ən böyük yolun Allahı qeyb gözü ilə görmək olduğunu vurğulayır.*

*Qeyb gözü açıq olan şəxs, Allahın sifətlərini dərk etməklə kamilliyə doğru yol alır.*

*Sifət Allahın (c.c.) zatına nisbət edilən bir qavramdır. Allahu Təalaya (c.c.) aid ilahi sifətlər iki qismə bölünür: Sifati Səlbiyyə (sifətlər Allaha aid deyil), Sifati Subutiyyə (sifətlər Allaha məxsusdur). Məqalədə Allah Təalanın sifətləri haqqında danışılır, onların Nizaminin əsərlərindəki yeri və mənaları təsvir edilir və dini rəvayətlərlə izah olunur. Allaha aid olmayan, yəni səlbi sifətlər yeddidir. Tədqiqat zamanı istinad etdiyimiz mənbələrdən əldə etdiyimiz məlumatlar nəticəsində dahi Nizami Gəncəvinin dediyi kimi, kainatın mövcud olmasının səbəbi Tanrıdır və hər şey Allahın izni ilə varlığını davam etdirir.*

**Açar sözlər:** Qurani-Kərim, Allah, Səlbi sifətlər, Görünən (məri) deyil
**Ключевые слова:** Коран, Аллах, Неприсущие богу атрибуты, Невидимый (неощущаемый),
**Key words:** Holy Koran, Allah, Attributes not belonging to Allah, Non-visible.

Nizami Gəncəvi yüksək bədii istedada malik şair olmaqla yanaşı, eyni zamanda dərin və əsaslı dini-irfani biliklərə sahib idi. Ümumbəşəri təfəkkür sahibi olan şair kamilliyə gedən yolun ən böyük keçidini Allahı (c.c.) qeyb gözü ilə görüb dərk etmək olduğunu vurğulayır. Belə ki, insan bütün varlığı–cism və ruhu ilə pəhrizini saxlayıb öz ruhunu bədənin cismani tələblərindən yuxarı qaldırmağa nail olarsa, onun qeyb gözü açılar. Qeybi açıq insan Tanrısını Onun isim və sifətlərini idrak edərək onlarda tapar. Beləliklə kamilliyə gedən məşəqqətli yolun ən çətin hissəsi arxada qalmış olar. Qeyd edək ki, bu ecazkar ruhi hadisələr zamansız və məkansızdır. "Nizaminin əsərlərində Allahın vəsfi üçün işlədilən kəlamlar dini ifadələrə çox yaxın olub, onlarla həmahəng səslənir" (2, 27).

Sifət Allahın (c.c.) zatına nisbət edilən bir qavramdır. Allahu Təalaya (c.c.) aid ilahi sifətlər iki qismə bölünür:

1. Sifati-səlbiyyə
2. Sifati-sübutiyyə (1, 23.)

Səlb - yox etmək, uzaqlaşdırmaq deməkdir. Allahın şanına yaraşmayan, əksiklik ifadə edən, yaradılmışlıq xüsusiyyəti daşıyan, uluhiyyətə aid edilməsi mümkün olmayan bir qavramdır. Səlbi sifətlərin məqsədi hər cür şirkdən uzaqlaşıb tövhid inancını tam şəkildə isbat etməkdir (13, 488). Beləliklə, sifəti-səlbiyyə Allahu Təalaya yaraşmayan, Onda olmayan sifətlərdir. Bu sifətlər üçün "Heç bir şey onun bənzəri deyildir" ayəsi əsas qəbul edilmişdir (10, 42/11).

İmam Sadiq (ə.) da Allahın (c.c.) sifətləri barəsində buyurur: "Allah Nurdur, Onda zülmət yoxdur və Diridir. Onda ölmək (yox olmaq) yoxdur və Alimdir. Onda cəhalət yoxdur və Samədir (ehtiyacsız), Onda nəfəsə ehtiyac yoxdur (12, 68).

Nizami Gəncəvinin "İskəndərnamə" poemasında "Hind həkiminin İskəndərlə söhbəti" adlı hissəsində hind həkimi İskəndərin yanına gələrək ona deyir:

Bilirəm ki, bir Yaradan var,
Əgər yolu ələ alsam, Onu mən harada axtarım
Onun nişanı (əlaməti) aydındır, Özü gözə görünmür
Bağlı qapıya açarı mən kimdə axtarım
Mənalar sahibi olan Onun vücudu
Yerdədirmi, yoxsa göydədirmi?
Onu fikirdəmi axtarım, yoxsa baxışlardamı?
Əgər yerini soruşan olsa, haradadır deyim?
Onun yeri haradadır-yuxarıda ya aşağıda?
Soruşan adam (verilən cavaba) sübutla qane olur" (8, 499).

Bu beytlərdən aydın olur ki, həmin hind həkimi Allahu Təalanın məkanı, görünüb-görünmədiyi, aşağıda və ya yuxarıda olması, qısacası sifətləri haqqında soruşur və İskəndərdən tutarlı cavab tələb edir.

Cavabında isə İskəndər deyir:

"Bu söz həm qısadır, həm uzun,
Elə ki, özündən üz çevirdin,
Bil ki, Allaha yol tapmısan.
Onun yerini soruşmaq lazım deyil,
Çünki Yaradanın yeri olmaz.
Nə kimsə Onun sirlərini saya bilər
Nə də fikir Ona yol tapa bilər.
Fikir o şeylərə yol tapır ki,
O, göz ilə görünsün.
Fikirdə olmayan hər şey
Allaha doğru yol göstərir (8, 500).

İskəndər hind həkiminin suallarının cavabının uzun olduğunu, lakin qısa yolla ona başa salacağını bildirir. O Uca Yaradanın laməkan olduğunu, Onun (c.c.) gözlə görünə bilməyəcəyini, fikrində düşündüklərinlə Onu (c.c.) tapa bilməyəciyini, çünki düşüncənin bundan uzaq olduğunu, Allaha çatmağın yolunu isə özündən vaz keçməkdə görür.

Allahu Təalanın səlbi sifətləri 7-dir. Bunlar aşağıdakı kimi sıralanır: (14, 45).

1.Mürəkkəb deyil- Əgər Allah (c.c.) mürəkkəb olsa, öz cüzlərinə ehtiyaclı olar və başqasına ehtiyaclı olması mümkünsüzdür ( yaradılışda başqasına ehtiyacı olan). Çünki mürəkkəb ona deyilir ki, "bir neçə cüzü olsun və hər bir cüzün biri digərinə ehtiyacı olsun.

Şair bu haqda deyir:

Sənin varlığının nə surəti var, nə peyvəndi
Sən heç kimə bənzəmirsən və kimsə sənə bənzəyə bilməz (3, 20).
Sən pərakəndə deyilsən ki, yığılasan,
Çox da deyilsən ki, azalasan (7, 23).

Nizami burada bildirir ki, Allahın varlığı insan təfəkküründəki "mürəkkəb" anlayışına uyğun gəlmir, bu anlayışla səciyyələndirilmir. "Mürəkkəblik" maddi aləmə aid düşüncə kateqoriyasıdır və onun Allahın varlığına dəxli yoxdur. Allahın varlığı:

Şəkilsizdir;

Hissələrdən təşkil olunmur;

Maddi və qeyri –maddi aləmdə heç bir analogiyası yoxdur;

Ayrı-ayrı ünsürlərdən təşkil olunmadığı üçün nizama ehtiyacı yoxdur;

Artmaq-azalmaq kimi həcm xüsusiyyətlərinə malik deyil;

Ölərək yox olmur;

Əbədi olaraq dəyişməzdir;

2. Cism deyil- Allahu Təala cism deyil, çünki əgər cism olsa, onda məkana ehtiyac olardı və nəticədə hadisələrdən ayrılmağı qadağan olardı (çünki hər cismin məkana ehtiyacı vardır, yəni müəyyən bir həcmi tutur və məkana ehtiyac duyur).

Nizami Gəncəvi Allahın(c.c.) bu səlbi sifəti haqqında bildirir:

O Allahdır ki, zahiri ölçüsü yoxdur,

Vücudunun əvvəli, axırı yoxdur (4, 316)

Dahi Nizami Gəncəvi də beytlərində Allahın eni, uzunluğu və qalınlığı olmadığını, Onun heç bir gözlə görmək və təsəvvür etmək mümkün olmadığını bildirir. Dəyərli İslam alimi Fəxrəddin Raziyə görə də Uca Allahın bir cism olmasını düşünmək xətadır, çünki cismlər parçalardan əmələ gəlir, hissələrdən ibarət olan varlıqlar bir yerə toplanma və dağılmağa məruzdurlar. Bu vəziyyətdə olan varlıqlar əlbəttə ki, onu bir araya gətirəcək, əmələ gətirəcək bir varlığa ehtiyac duyarlar. Bu xüsusiyyətlərə sahib olan varlıqlar muhdəs, yəni sonradan ortaya çıxmış varlıqlardır. Allah isə muhdəs bir varlıq deyildir. Buna görə də Allahın bir cism olması mümkün deyildir (11, 529).

3. Hadisələrin məhəlli (yer) deyil- Allah (c.c.) belə olarsa hadisələrdən təsirlənər və nəticədə ona nöqsan nisbət veriləcək. Allahu Təalada kamil sifətlərin olmasına maneə yaradar. Çünki nöqsanlı olsa onda gərək kamilliyə doğru səy etsin və nəticədə Allahın vücudu kamilliyə getdikcə daim dəyişə və təzələnə, bu da məhəll bir şeydir.

Sən yol göstərənsən, Sənin isə yolgöstərənin yoxdur,

Sən hər yerdə (varsan) yerin isə yoxdur (5, 16).

Dahi şair Allahın heç bir məhəllədə yerləşmədiyini, heç bir məkana sığmadığını və heç bir məkandan da asılı olmadğını deyir. Nəsimi demiş, "Allah laməkandır", yəni məkansızdır.

4. Görünən (məri) deyil- Allahu Təalanın gözlə görünməsi qeyri mümkündür. Əgər görünən olsa lazımdır ki, bir cəhətdə (məkanda) olsun və bu zaman və bu zamanda gərək cism ola, bu da məhəlldir. Əraf surəsi 143-cü ayəsində Allahu Təala Hz.Musaya "Əsla sən məni görə bilməzsən" deyə buyurur. Eyni zamanda Bəqərə surəsinin 55-ci ayəsi və Nisa surəsinin 153-cü ayəsi də buna aiddir. Allahu Təala Ənam surəsi 103-cü ayədə buyurur: "Gözlər Onu (görüb) dərk etməz. O, gözləri dərk edər. O lətifdir (cisimlikdən uzaqdır), (hər şeydən) xəbərdardır.

Bəsirət əhli qarşısında Sən aydınsan

Amma surətcə deyil, yaratdığın surətlərlə (aydınsan) (5, 15).

Nizamiyə görə, Allahı adi gözlə yox, bəsirət gözü ilə görmək mümkündür. Lakin bu görüntünün özü Allahın əsl varlığını inikas etmir. "Surət" sözünü metaforik şəkildə motivləndirən sənətkar bildirir ki, bəsirət əhlinin maddi aləmdə Allahın surəti (özü) adına gördükləri onun özü yox, yaratdıqlarıdır. Surəti (maddi siması) olmayanı görmək mümkün deyil. Maddi aləm özü bütövlükdə Allahın yaratdığı surət (obraz) aləmidir, maddi aləm Onu obrazlaşdırır. İnsan özü maddi yaradılış hadisəsi olaraq surətdir (obrazdır) və güzgüdəki şəklin (əksin) əks etdirdiyini görməsi mümkün olmadığı kimi, surətin də (şəkil-obrazın) sürətlənəni (Allahı) görməsi mümkünsüzdür.

5. Şəriki yoxdur- Allahın şərikinin olmamasını həm nəqli dəlillər, həm də təmanu qaydası qadağan edir. Belə olsa varlığın nizamı pozular.

1-ci bütün əqidə alimləri və filosoflar Allahın şərikinin olmağını nəqli dəlillərlə inkar ediblər. Bütün peyğəmbərlərin bir Allaha ibadət etmələri buna dəlildir.

2-ci təmanu qaydasını Qurani-Kərim buyurur: "Əgər (yerdə və göydə) Allahdan başqa tanrılar olsa idi, onların ikisi də (müvazinətdən çıxıb) fəsada uğrayardı. Ərşin sahibi olan Allah (müşriklərin Ona) aid etdikləri sifətlərdən tamamilə uzaqdır! (10, 21/22).

Nizami Gəncəvi isə Allahu Təalanın şəriksiz olması barədə deyir:

Sən hər bir işdə dosta möhtacsan
O Allahdır ki, nə tayı var, nə nə yoldaşı (4, 74).

Dahi şair də beytləri ilə Allahın (c.c.) tək olduğunu, heç bir şərikinin olmadığını, yaradılmışların çox olduğunu, lakin Yaradanın birliyini təsdiq edir. Bizim gördüyümüz, görmədiyimiz hər bir şeyin tək Sahibinin Uca Yaradan olduğunu qeyd etmişdir. Dahi şair Allahu Təalaya (c.c.) belə müraciət edir:

Ey bütün varlığı Yaradan,
Zəif torpağı qüdrətli edən!
Kainat sənin bayrağın altında oturmuşdur!
Bizim varlığımız Səndən, Səninsə varlığın Öz zatındandır (3, 20).

Şairin də dediyi kimi bütün varlığın yaradıcısı olan Allah (c.c.) cansız olan hər şeyə can vermişdir. Necə ki, insanın sahib olduğu cansız vücuda ruh verərək canlandırdığı kimi. Bəli, bizim varlığımız Allahın nurundandır, Onun qüdrət nişanəsidir. Allah isə şəriksizdir, təkdir, birdir, əzəli və əbədidir.

Başqa bir beytdə deyir:

Sən doğulmamısan, qalan hamı doğulmuşdur
Sən Tanrısan, qalan (boş) küləkdi (5, 15).

Burada şair "İxlas" surəsini öz şairanə tərzi ilə qələmə almışdır. Qurani-Kərimdə buyrulur:

"(Ya Peyğəmbər! Allahın zatı və sifətləri haqqında səndən soruşan müşriklərə) de: (Mənim Rəbbim olan) O Allah birdir (heç bir şəriki yoxdur). Allah heç kəsə, heç nəyə) möhtac deyildir! (Hamı Ona möhtacdır. O əzəlidir, əbədidir). O nə doğmuş, nə də doğulmamışdır! (Allah özünə heç bir övlad götürməmişdir). Onun heç bir tayı-bərabəri (bənzəri yoxdur).

Bu surə Allahu Təalanın şəriki olmadğını açıq şəkildə təsdiq edir. Eyni zamanda şairin beyti də bu surənin şerləşmiş formasıdır.

Elə bir Zatdır ki, heç kimə bənzəməz
Bütün bu varlıq Onun mülkünün cuzi bir hissəsidir (7, 135).
O təkdir, ikilikdən həzrəti pakdır,
Nə sudan, nə oddan, nə hava, nə torpaqdandır (8, 426).

Şairin də dediyi kimi, Allahu Təalanın heç bir köməkçisi və köməyə ehtiyacı yoxdur. O misilsiz, bənzəri olmayan bir varlıqdır. Hz.Əliyə sual veriləndə ki, sən Allahı görübsənmi, o belə cavab verir: "Mən görmədiyimə iman gətirmərəm". Soruşanda ki, Onu necə görmək olar? Hz.Əli cavabında deyir: "Allahı yalnız iman haqqı ilə görmək olar." Yəni Onu bəsirət (əqlin, zəkanın, həqiqətin) gözü ilə görmək olar.

6. Onun üçün məna və halın olmağı sabit olmur- Çünki Allah öz qüdrəti ilə Qadir olsaydı, yaxud elmi ilə Alim olsaydı öz sifətlərinə möhtac olardı.

Bütün varlıq Onun varlığından ad almışdır,
O tamdır, qalan hər şey natamamdır (8, 427).

Dahi şairə də görə, Allahu Təalada olan sifətlər dəyişmir və Onun zatından ayrı deyil.

7. Ğənidir (Zəngindir) – Allahu Təala Ğənidir, başqasına ehtiyacı yoxdur. O (c.c.) Fatir surəsi 15-ci ayədə buyurur: "Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə (heç nəyə, o

cümlədən sizin ibadətinizə) möhtac deyildir. O (hər cür) şükrə (tərifə) layiqdir! (Onun bütün işləri bəyənilәndir!).

Şəhadət ver ki, aləmin bir Allahı var
Nə bir yerdədir, nə də bir ehtiyacı var (4, 337).

Şairə görə də, Yaradanın heç bir şeyə ehtiyacı yoxdur və möhtac deyildir, əksinə biz insanların Ona ehtiyaclı olduğumuzu bildirir.

Allahu Təalanın Nizami Gəncəvidə keçən sifətləri haqqındakı fikirlərimiz dəyərli alimimiz Əhmədağa Əhmədovla eynilik təşkil edir.

Sonda isə demək istəyirik ki, dahi Nizami Gəncəvinin də bildirdiyi kimi, kainatın var olma səbəbi Allahdır, hər bir şey varlığını Onun izni ilə sürdürür. Əsərlərinin də hər birinə tövhidlə başlaması bunun ən gözəl göstəricisidir. Eyni zamanda qısa olaraq özətləsək, o Allahu Təalanın böyüklüyündən, isim və sifətlərindən, qüdrətinin sonsuzluğundan, zatının təsvir və xəyal edilə bilən şeylərdən uzaq olmasından, heç bir şeyin Ona bənzəmədiyini, bütün aləmin tək Yaradanı olması, bütün qüvvət və qüdrətin, elmlərin Ona aid olması kimi mühüm məsələlərə bədii üslubu ilə başqa bir gözəllik qatmışdır. Allahu Təalanın səlbi və sübuti sifətlərini geniş şəkildə izah etmişdir. Şair qeyd edir ki, sifati-subutiyyədə olan sifətlər Yaradanın bir olması, varlığının özündən olması, varlığının başlanğıcı və sonunun olmamsı, zatında və sifətlərində bənzərinin olmaması, bütün varlıqlara həyat verən olmasını sübut edir. İnsanların vəzifəsi isə Yaradanın sifətlərinin hər birini haqqı ilə dərk edib, Onu (c.c.) bütün nöqsan sifətlərdən münəzzəh etmək və həmd-səna ilə yad etməkdir. Allahdan gəldiyimiz üçün də axırda yenə də Ona qaytarılacağıq.

İlk naxışın sərgüzəşti Sənə bağlıdır,
Axırıncı sözdə Sənə qayıtmalıdır (7, 25).

Beləliklə Uca Yaradan gizli xəzinəsini ortaya çıxarmaq üçün kainatı yaratdığnı, ilahi həqiqətə çatmaq üçün isə ağlın kifayət etmədiyini, bunun üçün ilahi eşqin gərəkli olduğunu bildirir. Bunun üçün insan mənliyini tərk etməli və yaradılış səbəbini bilməlidir.

### *Ədəbiyyat*

1. Əhmədov Ə . İslamın əsasları. Bakı: Bilik, 1992, 140 s.
2. Məmmədov Z. Nizaminin fəlsəfi düşüncələri. Bakı: Elm, 2000, 81 s.
3. Nizami Gəncəvi. Sirlər xəzinəsi / Filol. tərc., izahlar, şərhlər və qeydlər: R.Əliyev. Bakı: Elm, 1981,246 s.
4. N.Gəncəvi. Xosrov və Şirin/Filol. tərc., izahlar və qeydlər:H.Məmmədzadə. Bakı: Elm, 1981, 370 s.
5. N.Gəncəvi. Yeddi gözəl / Filol. tərc., izahlar və qeydlər: R.Əliyev. Bakı: Elm, 1983, 355s.
6. N.Gəncəvi. Leyli və Məcnun/Filol. tərc., izahlar və qeydlər:M.Əlizadə. Bakı: Elm, 1981, 290
7. N.Gəncəvi. İskəndərnamə. Şərəfnamə / Filoloji təcümə: Q.Əliyev. Bakı: Elm, 1983, 404
8.Nizami Gəncəvi. İskəndərnamə. İqbalnamə / Filoloji tərcümə:V.Aslanov. İzahlar: Z.Quluzadə,V.Aslanov. Bakı: Elm, 1983, 243 s. .
9. Ocaqnəjad S.Ə.Ə. İnsana inanın. Bakı: Nafta-Pres, 2001, 112 s.
10. Qurani-Kərim məali. Ərəb-dilindən tərcümə edənləri: Z.Bünyadov və V.Məmmədəliyev. Bakı:İpək yolu, 2007.
11. Kirazi C. Zemahşerinin el-Keşşafında Allahın Bazı Sıfatlarıyla İlgili Temsil, Mecaz ve İstiare Algılamaları // Uludağ Universitesi İlahiyat Fakültesi Dergisi. Cilt: 17, sayı: 2, 2008.
12. Şeyx Səduq Məhəmməd İbn Əli. Ət-Tövhid. Qum: İslam n., hicri 1430(2009), həd 5, 548
13. Topaloğlu B. "Allah" Maddesi / İslam Ansiklopedisi. Yıl: 1989, Cilt: 2, s. 471-498
14. Əllamə Həsən b. Yusif Hilli. Ən-nafiu youmul-həşr fi şərhi əl- babi əl-hadi əşər. Qum: Dərul-Fikr, hicri 1385(1964), Hədis 42. 336 s.

## ЧУЖДЫЕ АТРИБУТЫ ВСЕВЫШНЕГО АЛЛАХА В ТВОРЧЕСТВЕ НИЗАМИ ГЯНДЖЕВИ

***Гусейнова Хаяла Расим гызы***

***Резюме***

Гениальный мыслитель Низами Гянджевиотмечал, что самый большой переход на пути совершенствования состоит в осмыслении прорицательного окна Аллаха. Прорицательный человек находит атрибуты Аллаха через путь осмысления. Атрибут это понятие, которое относится к сущности Аллаха. Божественные атрибуты Всевышнего Аллаха делятся на две части: чуждые и характерные атрибуты.

В статье перечисляются чуждые, неприсущие Всевышнему Аллаху атрибуты, значения которых истолковываются строками из произведений Низами и религиозных хадисов. Существует 7 неприсущих атрибутов. В ходе исследования основываясь на сведениях, полученных из источников, становится ясным, как указывал также великий Низами Гянджеви, что причина существования вселенной это Аллах, и существование всего продолжается по его велению.

## ATTRIBUTES THAT DO NOT BELONG TO ALLAH.

***Huseynova Khayala Rasim***

***Summary***

The great thinker NizamiGanjavi emphasizes that the greatest passage of the way to perfection is to see Allah through the eyes of the unseen.

Person with open ghayb, finds Allah by cognition of attributies.

Attribute is a conception belongs to Allah. The divine attributes of Allahu ta'ala are divided into two parts: Sifati Salibiyya (attibutes don`t belong to Allah), Sifati Subutiyya (attributes belong to Allah). The article describes the attributes of Allahu ta'ala and describes the meanings of them by the works of Nizami and explains them with religious narrations. Attributes that don't belong to Allah are seven. As a result of the information obtained from sources we refer to during the research, it becomes obvious, as the genius Nizami Ganjavi states, the reason for the existence of the universe is God, and everything continues its existence with Allah`s permission.

***Rəyçi: Fil.e.d., professor Xəlil Yusifli***
***AMEA Gəncə Bölməsi Nizami Gəncəvi Mərkəzinin 09 mart 2021-ci il tarixli iclasın 01 saylı protokolu***
***Daxil olma tarixi 12 mart 2021-ci il***

UOT:811

## DÜNYA DİLLƏRİNDƏ PAREMİOLOJİ SEMANTİKANIN TƏŞKİLİ

***İsmayılova Gülnur Nürəddin qızı***
***Azərbaycan Dillər Universitetinin dissertantı***
***gulay81@ mail.ru***

**Xülasə:** *atalar sözlərinin unikal struktur-semantik mahiyyətə malik olaraq müxtəlif səpkilərdə öyrənilməsi qeyd olunur. Paremioloji nəzəriyyənin fundamental məsələlərindən biri atalar sözləri ilə zərbi-məsəllərin ayrılmasıdır. Nəzəri ədəbiyyatın və dil materialının təhlili əsasında belə bir nəticəyə gəlmək olar ki, atalar sözlərinin əsasını məntiqi hökm təşkil edir və struktur-semantik baxımdan onlar cümləyə bərabərdir, cümlə kimi identifikasiya olunmalıdır. Atalar sözləri həmişə bütöv və tamam bir fikir ifadə edir. Zərbi məsəllər isə bütöv fikir (məntiqi hökm) ifadə etmir. Atalar sözlərilə zərbi-məsələrin fərqi elə ondadır.*